*İctimai və humanitar elmlər 14, №1, 2026, səh. 100-106*

https://doi.org/10.59849/3006-1342.2026.1.100
UOT 94(55)

*Nərgiz Rövşən qızı Əliyeva*
*Bakı Dövlət Universiteti,*
*Doktorant*
*Email:nargiz.aliyeva-7@bsu.edu.az*
*https://orcid.org/0000-0003-3644-6533*

# BÖYÜK BRİTANİYA VƏ SSRİ-NİN İRANI İŞĞALINDA QAFQAZ AMİLİ (1941-Cİ İL)

*İkinci Dünya müharibəsi başladıqdan sonra bir sıra dövlətlər müharibə aparan tərəflərin siyasi təzyiqindən yayınmaq məqsədilə bitərəflik siyasəti elan etmişdilər. Bu dövlətlərdən biri də İran idi. İranın zəngin enerji resurslarına malik olması, həmçinin Yaxın Şərqə gedən həyati əhəmiyyətli kommunikasiya yolları üzərində yerləşməsi onu müharibə aparan dövlətlərin strateji maraq dairəsinə daxil edirdi. İran rəsmi olaraq bitərəf mövqe nümayiş etdirsə də, Almaniyanın həm Qərb, həm də Şərq cəbhələrində əldə etdiyi uğurlar ölkə rəhbərliyi və cəmiyyət daxilində Almaniyaya simpatiyanın artmasına səbəb olmuşdu. Məqalənin əsas tədqiqat obyekti 1941-ci il 25 avqust tarixində Böyük Britaniya və SSRİ hökumətləri tərəfindən İranın işğalı ilə nəticələnən proseslərin səbəblərinin, diplomatik gedişatının, eləcə də bu hadisələrdə yalnız Yaxın Şərqin deyil, həm də Qafqaz regionunun xüsusi əhəmiyyətinin təhlil edilməsidir. Neft ehtiyatları uğrunda rəqabət, Cənubi Qafqazın və Yaxın Şərqin Almaniya tərəfindən təhdid olunması Böyük Britaniya və SSRİ-ni hərbi müdaxiləyə sövq edən əsas amillər sırasında olmuşdur. Bundan əlavə, məqalədə İranla qonşu olan və müharibə dövründə bitərəfliyini elan etmiş Türkiyənin mövqeyi, eləcə də onu sakitləşdirmək məqsədilə London və Moskva hökumətləri tərəfindən həyata keçirilən diplomatik addımlar da təhlil edilmişdir.*

*Açar sözlər:* Böyük Britaniya, SSRİ, İran, İkinci Dünya müharibəsi, Almaniya, Qafqaz

## *Giriş*

İkinci Dünya müharibəsinin başlanğıcında İran bitərəfliyini elan etmişdi. Bunun isə müharibənin ilk dövründə Böyük Britaniyanın (bundan sonra Britaniya) imperiya maraqlarına heç bir mənfi təsiri yox idi. Baxmayaraq ki, hələ 1941-ci ilə qədər Almanyanın İrandakı sənayə investisiyalarında, ticarət sahəsindəki təsiri danılmaz idi. 1941-ci ilin iyun ayında Almaniyanın SSRİ-yə hücumu ilə SSRİ və Britaniyanın İranla bağlı siyasətində ciddi dəyişikliklər baş verməyə başladı. Belə ki, SSRİ hökuməti almanları İrandan çıxarmaqda qəti qərarlı idi. Əlavə olaraq, Britaniya almanların İrandakı mövcudluğunu artıq öz siyasi və iqtisadi maraqlarına təhdid kimi qəbul etməyə başladı. Bu siyasi dəyişikliklərin nəticəsi olaraq 1941-ci ilin avqust ayında uzun danışıqlar mərhələsindən sonra SSRİ və Britaniya tərəfindən İranın işğalı həyata keçirildi.

Almaniyanın Türkiyə ilə bağladığı dostluq və neytrallıq haqqında müqavilə də Britaniya hökumətində ciddi narahatlıq doğururdu. Belə ki, Almaniyanın Cənubi Qafqaza Türkiyə ərazisi vasitəsilə və ya SSRİ-ni işğal etməklə çıxış əldə etməsi Britaniyanın imperiya maraqlarına ciddi zərbə vura bilərdi. Britaniyanın İrandakı əsas strateji maraq sahəsi isə, şübhəsiz ki, Abadanda yerləşən neft yataqları idi. Bu neft yataqlar Britaniyanın Yaxın Şərqdə yerləşən hərbi qüvvələrinin yanacaq təminatında həlledici rol oynayırdı. Bununla yanaşı, Almaniyanın İranı işğal etməsi və ya onunla müttəfiqlik münasibətləri qurması Britaniyanın Hindistan ilə kommunikasiya xətlərinin kəsilməsi riskini də yaradırdı. Müharibə

analitiklərinin fikrincə, Almaniyanın müharibə strategiyasında, xüsusilə SSRİ-yə hücum qərarında əsas motivlərdən biri Qafqaz və Yaxın Şərqin zəngin enerji resurslarına nəzarəti ələ keçirmək idi. Mövcud geosiyasi şəraiti nəzərə alan Britaniya hökuməti Yaxın Şərqdə yerləşən hərbi komandanlığına fövqəladə fəaliyyət planının hazırlanması barədə göstəriş verdi. Həmin plana əsasən, Almaniyanın Qafqazı işğal edəcəyi təqdirdə, İraq və İran neft yataqlarının təhlükəsizliyini təmin etmək məqsədilə Britaniyanın Yaxın Şərqdə yerləşən qüvvələri hesabına Şimali İrana hərbi müdaxilə həyata keçirilməsi nəzərdə tutulurdu [7, c. 442] Hətta zərurət yaranacağı halda, Qafqazın neft yataqlarının Almaniyanın nəzarətinə keçməsinin qarşısını almaq məqsədilə onların məhv edilməsi variantı belə müzakirə predmetinə çevrildi. Bu addımın, Almaniyanın neftə olan yüksək tələbatı nəzərə alındıqda, onun Yaxın Şərq istiqamətində irəliləyişinin qarşısının müəyyən dərəcədə alınmasına şərait yaradacağı ehtimal edilirdi.

1941-ci ilin iyun ayında Almaniyanın İranda apardığı təxribatçı fəaliyyətlər nəzərəçarpacaq dərəcədə intensivləşdi. Bunun əsas səbəbi Cənubi Qafqaz regionunun kəşfiyyatı, eləcə də şimal istiqamətindən mümkün alman hücumuna zəmin yaratmaq məqsədilə "Abver" agentlərinin bölgəyə göndərilməsi idi. Hətta, 26 iyun tarixində SSRİ rəhbərliyi almanların İranda dövlət çevrilişi hazırladıqları ilə bağlı əllərində əsaslı məlumatların olduğunu bildirdi. Bu fəaliyyətlərlər əsassız deyildi, çünki Almaniya eyni vaxtda həm SSRİ-yə, həm də Britaniyaya strateji zərbə endirmək imkanını əldə edirdi. Əlavə olaraq isə, İranın zəngin neft ehtiyatları Almaniyanın müharibədəki strateji hədəflərinə çatmasına kömək edən əsas vasitələrdən biri idi. Buna baxmayaraq, Britaniyanın İrana münasibətdə ilkin siyasəti alman vətəndaşlarının və agentlərinin yaxın vaxtlarda ölkədən çıxarılmasına nail olmaq məqsədilə İran şahına diplomatik təzyiq göstərməyə yönəlmişdi. Lakin bu yanaşmanın effektivliyi ciddi şübhə doğururdu. Belə ki, Almaniyanın Qərb cəbhəsində əldə etdiyi hərbi uğurlar İran şahının mövqeyinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Bu təsir təkcə hökumət dairələrində deyil, eyni zamanda ictimai rəy səviyyəsində də özünü büruzə verirdi. Belə ki, Tehrandakı Britaniya hərbi attaşesinin 25 iyun 1941-ci il tarixli hesabatında qeyd olunurdu ki, Almaniyanın qısa müddət ərzində SSRİ-ni məğlub edəcəyi, iki ay ərzində isə Ukrayna və Bakı istiqamətlərində irəliləyərək bu əraziləri ələ keçirəcəyi gözlənilirdi. Almaniyanın növbəti addımı isə İrana daxil olacağı ehtimal edilirdi. Bu şəraitdə, mümkün Alman təhdidindən yayınmaq məqsədilə almanların ölkədən çıxarılması real və icra oluna bilən variant kimi görünmürdü [2, p. 28].

1941-ci il iyunun 27-də Britaniyanın SSRİ-dəki səfiri S.Kripps ilə V.Molotov arasında görüş keçirilmişdir. Görüş zamanı Britaniya hökuməti tərəfindən SSRİ-yə göndərilmiş hərbi və iqtisadi missiyalar sovet rəhbərliyinə təqdim olunmuşdur. S.Kripps, həmçinin, Britaniyanın müharibə dövründə mövcud resursları çərçivəsində SSRİ-yə mümkün olan yardımı göstərəcəyini bildirmişdir. Bununla yanaşı, o, İran, İraq, Əfqanıstan və Türkiyə məsələlərində hər iki hökumətin vahid mövqedən çıxış etməsinin vacibliyini vurğulamışdır. Müharibənin bu mərhələsində Yaxın Şərq regionunda həm Britaniya, həm də SSRİ üçün əsas prioritet məsələ İran ərazisinə düşmən dövlətlərin nüfuzunun qarşısının alınması idi. S.Krippsin iyunun 28-də SSRİ Xarici Ticarət üzrə Xalq Komissarı A.Mikoyan ilə keçirdiyi görüşdə Britaniyanın SSRİ-yə vəd etdiyi yardımların çatdırılma mexanizmləri müzakirə olunmuşdur. Britaniya rəsmilərinin mövqeyinə görə, müharibənin mövcud gedişatı şəraitində bu yardımların İran ərazisindən keçən dəmir yolu və avtomobil marşrutları vasitəsilə çatdırılması daha məqsədəuyğun hesab edilirdi. Belə ki, yardımın Murmansk limanına çatdırılması Almaniyanın təxribatçı fəaliyyətləri səbəbindən faktiki olaraq mümkün deyildi [5, c. 33-34]. Nəticə etibarilə, qeyd olunan danışıqlar Britaniya və SSRİ hökumətləri arasında İran məsələsi üzrə ilkin əməkdaşlıq cəhdlərinin formalaşdığını nümayiş etdirirdi.

1941-ci il 8 iyul tarixində Kripps ilə Stalin arasında keçirilən görüşdə müzakirə olunan əsas məsələlərdən biri İranla bağlı idi. Görüş zamanı Stalin Almaniyanın İranda və Əfqanıstanda sovet maraqlarına qarşı təxribatçı fəaliyyət apardığını, bu fəaliyyətlərin isə Bakıya mümkün hücum üçün əlverişli zəmin yaratmağa xidmət etdiyini vurğulamışdı [2, p. 92]. Stalin, eyni zamanda, 1921-ci il Sovet–İran müqaviləsinə istinad edərək qeyd etdi ki, SSRİ-nin təhlükəsizliyinə yönəlmiş hər hansı real təhdid yarandığı təqdirdə Sovet İttifaqı İrana qoşun yeritmək hüququna malikdir. Bu hüquqi əsas Moskvanın mümkün müdaxiləsini beynəlxalq müqavilə çərçivəsində legitimləşdirməyə xidmət edirdi [1, s. 57]. Ümumilikdə, Stalin İran məsələsində Britaniya ilə koordinasiyalı və birgə fəaliyyət göstərilməsini təklif edir, regionda Alman təsirinin qarşısının alınmasını iki dövlətin ortaq strateji marağı kimi təqdim edirdi.

SSRİ və Britaniya rəhbərliklərinin İran məsələsinə yanaşmaları müəyyən məqamlarda fərqlənirdi. Stalin İrana qarşı təzyiq vasitəsi kimi iqtisadi sanksiyaların tətbiqini mümkün variant kimi irəli sürsə də, Britaniya hökuməti ilkin mərhələdə daha çox diplomatik təsir mexanizmlərindən istifadə etməyi məqsədəuyğun hesab edirdi. London üçün prioritet məsələ Almaniya təsirinin zəiflədilməsi və xüsusilə alman mütəxəssislərinin İran ərazisindən uzaqlaşdırılması idi. SSRİ üçün isə əsas strateji hədəf İranın ərazisindən tranzit marşrut kimi istifadə olunması və bu xətt vasitəsilə Sovet İttifaqına hərbi texnika və digər zəruri materialların fasiləsiz çatdırılmasının təmin edilməsi idi. Bu baxımdan, 19 və 20 iyul tarixlərində Britaniya və SSRİ səfirləri İranın xarici işlər nazirinə rəsmi nota təqdim edərək alman vətəndaşlarının ölkədən çıxarılmasını tələb etdilər. Notada həmçinin bildirilirdi ki, bu tələblərin yerinə yetirilməsi İranın müstəqilliyinin qorunması baxımından zəruri şərt kimi qiymətləndirilir və mümkün təhlükə yarandığı halda müttəfiqlər İranın suverenliyinin müdafiəsinə hazır olduqlarını bəyan edirdilər. Lakin İran şahı bu tələbləri qəbul etməkdən imtina etdi və vəziyyətin gərginləşməsi fonunda ölkədə ümumi səfərbərlik elan olundu ki, [8, c. 56] bu da böhranın diplomatik çərçivədən çıxaraq hərbi müstəviyə keçməsi ehtimalını daha da artırdı.

Britaniya hökuməti daxilində də İran məsələsinə münasibətdə vahid mövqe mövcud deyildi. Xüsusilə Hərbi İqtisadiyyat naziri Hyu Dalton İrana qarşı hərbi müdaxilənin ən qətiyyətli tərəfdarlarından biri kimi çıxış edirdi. Onun mövqeyinə görə, İranın müharibədə bitərəf statusu həmin ölkə ərazisindən Sovet İttifaqına yalnız qeyri-hərbi yüklərin daşınmasına imkan verirdi ki, bu da müttəfiqlərin strateji maraqları baxımından yetərli deyildi. Dalton hesab edirdi ki, Britaniya və SSRİ İran dəmir yolu üzərində birgə nəzarəti təmin edə bilsələr, bu marşrut vasitəsilə hərbi təchizatın da Sovet İttifaqına göndərilməsi mümkün olardı. Oxşar mövqe Britaniyanın Yaxın Şərq üzrə Baş Komandanı general A.Vavell tərəfindən də müdafiə edilirdi. O, Almaniyanın İrandakı mövcudluğunu təkcə regional təhlükə kimi deyil, həm də Hindistan istiqamətində potensial strateji risk kimi qiymətləndirirdi. Bununla yanaşı, Britaniya hökumətinin əsas prioritetlərindən biri İran neft yataqlarının təhlükəsizliyinin təmin edilməsi və Fars körfəzi üzərində nəzarətin əldə saxlanılması idi [3, p. 91]. Müttəfiqlər tərəfindən İranın işğalı Almaniyanın regiona mümkün hərbi müdaxiləsinin qarşısını almağa yönəlmiş qabaqlayıcı strateji tədbir kimi qiymətləndirilə bilər. Əks təqdirdə, İranın Almaniyanın təsiri altına düşməsi Britaniyanın Yaxın Şərqdəki imperiya maraqlarına ciddi zərbə vura, xüsusilə Hindistan istiqamətində təhlükəsizlik balansını poza bilərdi. Həmçinin, düşmən qüvvələrinin sualtı qayıqları Fars körfəzi və Hind okeanına maneəsiz çıxış əldə edə bilərdi.

Mümkün İran əməliyyatı ilə bağlı Britaniya hökumətini narahat edən əsas məsələlərdən biri də bu prosesə Türkiyənin münasibəti idi. Xarici işlər naziri Entoni İdenin mövqeyinə görə, mövcud şəraitdə SSRİ və Britaniyanın Türkiyəyə hərbi-siyasi dəstək göstərməsi xüsusi əhəmiyyət kəsb edirdi. Belə ki, bitərəfliyini elan etmiş qonşu İran ərazisində SSRİ və

Britaniya hərbi qüvvələrinin yerləşdirilməsi faktiki olaraq Türkiyə sərhədləri boyunca bu iki dövlətin hərbi mövcudluğunun formalaşması demək idi. Bu səbəbdən Türkiyə hökuməti, Almaniya ilə münasibətlərini də nəzərə alaraq, gələcəkdə öz sərhədlərinə hər hansı müdaxilənin qarşısını almaq məqsədilə Britaniya və SSRİ hökumətlərindən bitərəfliyinin qorunacağına dair zəmanət tələb edirdi. Qeyd olunan məsələ ilə bağlı Britaniya Xarici İşlər Nazirliyinin rəhbərliyi tərəfindən Britaniya ilə SSRİ-nin Türkiyə ilə diplomatik münasibətlərini tənzimləməyə yönəlmiş və sovet rəhbərliyinə təqdim olunması nəzərdə tutulan xüsusi memorandum hazırlanmışdı. Memoranduma əsasən, hər iki dövlət Türkiyəyə rəsmi şəkildə Boğazların statusu və sərhədlərinin toxunulmazlığı ilə bağlı təminat verməli idi ki, bu addım faktiki olaraq Ankara hökumətini sakitləşdirməyə xidmət edə bilərdi. Britaniya tərəfindən hazırlanmış sənədə əlavə olaraq sovet rəsmiləri bildirirdilər ki, Almaniyanın Türkiyəyə mümkün hücumu halında hər iki dövlət ona hərbi yardım göstərəcəkdir. Beləliklə, aparılan son düzəlişlərdən sonra 10 avqust tarixində hər iki dövlətin səfirləri Türkiyə hökumətinə ardıcıl şəkildə rəsmi bəyanatlar təqdim etdilər. Bəyanata əsasən, SSRİ və Britaniya hökumətləri Montrö Konvensiyasının müddəalarına əməl edəcəklərini, Türkiyənin ərazi bütövlüyünə hörmətlə yanaşacaqlarını, eləcə də hər hansı Avropa dövləti tərəfindən təzyiqə və ya hücuma məruz qalacağı təqdirdə ona yardım göstərəcəklərini öhdələrinə götürdüklərini bəyan edirdilər [7, p.102].

Britaniya hökuməti son diplomatik təşəbbüs kimi İrana təqdim olunması üçün xüsusi memorandum hazırladı. Həmin sənədə əsasən, Britaniya hökuməti İranın bitərəfliyinin qorunub saxlanacağına təminat verir, eyni zamanda ilin əvvəlindən etibarən İrandan alman vətəndaşlarının təcili şəkildə çıxarılması ilə bağlı edilmiş xəbərdarlıqları bir daha xatırladırdı. Memorandumda qeyd olunurdu ki, zərurət yarandığı halda alman mütəxəssislərinin müəyyən hissəsinin İranda qalmasına icazə verilə bilər, lakin onların ümumi sayı əvvəlki sayın beşdə birindən artıq olmamalı, həmçinin onların fəaliyyəti üzərində ciddi nəzarət mexanizmi tətbiq edilməlidir. Britaniya Hərbi Kabinetində yekdilliklə qərara alınmışdı ki, İran tərəfindən veriləcək cavab mənfi olduğu təqdirdə hərbi əməliyyatlara başlanılacaqdır. Bu məqsədlə, hətta ölkə ərazisinə daxil olunduqdan sonra İran hökumətinə təqdim etmək üçün ayrıca nota layihəsi də hazırlanmışdı. Gözlənildiyi kimi, İranın cavabı qeyri-qənaətbəxş hesab edilmiş və 1941-ci il 23 avqust tarixinə qədər hərbi müdaxilə üçün bütün hazırlıq tədbirləri başa çatdırılmışdır [2, p. 39-40].

1941-ci il 25 avqust tarixində Cənubi Qafqaz ərazisindən Sovet qüvvələri, İranın cənubundan və cənub-qərb istiqamətindən isə Britaniya qüvvələri İranın işğalına başladılar. İranın işğalı başa çatdıqdan sonra bu məsələ müttəfiqlər arasında mübahisəli xarakter almağa başlamışdır. SSRİ-nin Şimali İran ərazisində sürətlə möhkəmlənməsi və təsir dairəsini genişləndirməsi Britaniya rəsmiləri arasında ciddi narahatlıq doğururdu. S.Kripps və R.Bullard bu məsələdə oxşar mövqe nümayiş etdirərək hesab edirdilər ki, sovet qüvvələrinin Xəzər dənizi sahillərinə nəzarəti müharibədən sonrakı dövrdə Britaniyanın regional maraqlarına mənfi təsir göstərə bilər. Bununla belə, işğalın ilkin mərhələsində U.Çörçillin qənaətinə görə, SSRİ-nin İrandakı mövcudluğu İran şahına qarşı diplomatik təzyiq vasitəsi kimi istifadə oluna bilərdi [3, p. 93].

Stalin isə Avropada ikinci cəbhənin açılmaması şəraitində Britaniyadan İran vasitəsilə Qafqaza 25–30 diviziyanın göndərilməsini tələb edirdi. Bu məsələ 15 sentyabr 1941-ci ildə SSRİ-nin Britaniyadakı səfiri İvan Mayiski ilə Çörçill arasında keçirilmiş görüşdə də müzakirə olunmuşdur. Çörçill mövcud ağır şəraitdə SSRİ-yə mümkün olan maksimum yardımın göstərilməsinin Britaniya üçün prinsipial məsələ olduğunu vurğulasa da, hazırkı vəziyyətdə belə böyük hərbi qüvvənin göndərilməsinin praktiki baxımdan qeyri-mümkün olduğunu Mayiskiyə izah etməyə çalışmışdır. Stalinin irəli sürdüyü tələbin reallaşdırılması baxımından Britaniyanın qarşısında iki əsas problem mövcud idi. Birincisi, metropoliya və

Yaxın Şərq regionunun təhlükəsizliyinin gücləndirilməsinə ehtiyac duyulduğu bir dövrdə bu miqdarda qüvvənin SSRİ-yə göndərilməsi Britaniya üçün son dərəcə çətin idi. İkincisi isə, həmin hərbi kontingentin Qafqaza hansı marşrutlar və logistika vasitələri ilə çatdırılacağı məsələsinin qeyri-müəyyən qalması idi [4, p. 161]. Stalinin diviziyaların göndərilməsi ilə bağlı təkidinə cavab olaraq, Çörçill bildirmişdi ki, SSRİ ən yaxşı halda Şimali İrandakı qüvvələrinin bir hissəsini geri çəkərək onları Şərq cəbhəsinə yönəldə bilər. Bu halda çıxarılan sovet qoşunlarının yerini Britaniya–Hindistan birləşmiş hərbi qüvvələrinin tutması nəzərdə tutulurdu. Qoşunların İrandan çıxarılması müqabilində Britaniya hökuməti həm müharibə dövründə, həm də müharibədən sonrakı mərhələdə SSRİ-nin regiondakı maraqlarına zərər vuracaq heç bir addım atmayacağına dair təminat verirdi. Lakin bu təklif SSRİ rəhbərliyi tərəfindən məqsədə uyğun hesab edilmədi və dərhal rədd edildi [4, p. 165].

## *Nəticə*

İranın işğalı SSRİ və Britaniya qüvvələri tərəfindən həyata keçirilərək Yaxın Şərqdə geosiyasi balansın yenidən formalaşmasına səbəb olan İkinci Dünya müharibəsinin mühüm hadisələrindən biri hesab olunur. İran formal olaraq bitərəf mövqedən çıxış etsə də, faktiki olaraq Almaniya siyasətinin təsiri altında idi ki, bu da SSRİ və Britaniyanın regiondakı geosiyasi maraqları ilə ziddiyyət təşkil edirdi. Almaniyanın SSRİ-yə qarşı hərbi kampaniyaya başlamasından sonra Britaniya və SSRİ hökumətlərinin ümumi düşmənə qarşı yaxınlaşmasının ilk təzahürlərindən biri məhz İran məsələsi olmuşdur. Bununla yanaşı, hər iki dövlətin İranla bağlı özünəməxsus strateji məqsədləri mövcud idi. Britaniya və SSRİ tərəfindən İranın işğalı rəsmi olaraq onu Almaniya hücumu təhlükəsindən qorumaq məqsədi ilə əsaslandırılsa da, əslində hər iki dövlətin həm ortaq, həm də fərqli maraqları mövcud idi. SSRİ üçün əsas prioritetlər sırasında Cənubi Qafqazın təhlükəsizliyinin təmin edilməsi, Almaniya kəşfiyyat və təxribat fəaliyyətləri üçün əlverişli şəraitin aradan qaldırılması, eləcə də Britaniyadan göndərilən hərbi yardımların İran ərazisi vasitəsilə ölkəyə çatdırılmasının təmin olunması dayanırdı. Britaniyanın hərbi-strateji planlarında isə İranın rolu ilk növbədə regiondakı zəngin neft ehtiyatlarının qorunması və Yaxın Şərqdə imperiya maraqlarının təhlükəsizliyinin təmin edilməsi ilə müəyyən olunurdu.

## ƏDƏBİYYAT


1. Həsənli, C., İkinci Dünya müharibəsi illərində Azərbaycan hərbi, siyasi və diplomatik münasibətlərdə (1939-1945). Bakı: “Yazıçı nəşriyyatı”, 2015, 540 s.
2. Eshraghi, F., Anglo-Soviet Occupation of Iran in August 1941. // Middle Eastern Studies, Vol. 20, No. 1 – 1984, pp. 27-52
3. Kitchen, M., British Policy towards Soviet Union during the second world war. London: Palgrave Macmillan, 1986, 317 p.
4. Miner, M.S., Between Churchill and Stalin: The Soviet Union, Great Britain, and the origins of the grand alliance, The University of North Caroline Press, 1988, 319 p.
5. Голуб Ю. Г., Иранский Фактор Англо-Советского Сближения После Нацистского Нападения на Советский Союз (Июнь–Июль 1941 Г.) // Известия Саратовского университета. Новая серия. Серия История. Международные отношения - Т. 14, вып. 4 – 2014, с. 30-40.
6. Голуб Ю. Г., Вхождение Британских Войск В Иран В Августе 1941 Года // Известия Саратовского университета. Новая серия. Серия История. Международные отношения - Т. 16, вып. 4 – 2016, с.441-448
7. Голуб Ю. Г., СССР и Великобритания на пути к операции «согласие», август 1941 г. // Известия Саратовского университета. Новая серия. Серия История. Политология. - Т. 15, вып. 4 – 2015, с.99-108

8. Кулагина Л. Политика Великобритании в Иране во время и после 2-ой Мировой войны // Иран и вторая мировая война:сборник статей/Рос. акад. Москва: 2011. -172.

УДК 94(55)

*Наргиз Ровшан кызы Алиева*
*Бакинский Государственный Университет*
*Докторант*

## АВКАЗСКИЙ ФАКТОР В АНГЛО-СОВЕТСКОЙ ОККУПАЦИИ ИРАНА (1941 г.)
### *РЕЗЮМЕ*

*Ключевые слова:* Великобритания, СССР, Иран, Вторая мировая война, Германия, Кавказ

После начала Второй мировой войны ряд государств объявил о нейтралитете с целью минимизации политического давления со стороны воюющих держав. Одним из таких государств являлся Иран. Значительные энергетические ресурсы страны, а также её стратегическое положение на коммуникационных путях, связывающих Ближний Восток и Южный Кавказ, обусловили повышенный интерес к ней со стороны ведущих мировых держав.

Несмотря на провозглашённый нейтралитет, военные успехи Германии как на западном, так и на восточном направлениях способствовали росту симпатий к ней в определённых кругах иранского общества и правительственных структурах.

Основной целью статьи является анализ причин и дипломатических процессов, завершившихся англо-советской военной операцией и последующей оккупацией Ирана 25 августа 1941 года. Особое внимание уделяется значению Кавказского региона и его роли в стратегических расчётах Великобритании и СССР. Борьба за контроль над нефтяными ресурсами, а также угроза безопасности Южного Кавказа и Ближнего Востока со стороны Германии стали ключевыми факторами принятия решения о военной интервенции.

Кроме того, в статье рассматривается позиция Турции, соседствовавшей с Ираном и сохранявшей нейтралитет в годы войны, а также дипломатические шаги правительств Лондона и Москвы, направленные на предотвращение её вовлечения в военный конфликт.

UDC 94(55)

*Nargiz Rovshan Aliyeva*
*Baku State University*
*PhD student*

## THE CAUCASUS FACTOR IN THE OCCUPATION OF IRAN BY GREAT BRITAIN AND THE USSR (1941)
### *SUMMARY*

*Keywords:* Great Britain, USSR, Iran, Second World War, Germany, Caucasus

Following the outbreak of the Second World War, a number of states declared neutrality in an effort to avoid political pressure from the belligerent powers. Iran was among

these countries. Owing to its substantial energy resources and its strategic location along vital communication routes linking the Middle East and the South Caucasus, Iran became an object of geopolitical interest for the major powers engaged in the conflict. Despite its declared neutrality, Germany's military successes on both the Western and Eastern fronts contributed to the growth of pro-German sentiment within certain political circles and segments of Iranian society.The article aims to analyze the causes and diplomatic developments that culminated in the Anglo-Soviet military intervention and subsequent occupation of Iran on 25 August 1941. Particular attention is given to the strategic significance of not only the Middle East but also the Caucasus region in the calculations of Great Britain and the USSR. Competition over oil resources and the perceived threat posed by Germany to the South Caucasus and the Middle East were decisive factors behind the decision to launch the joint military operation. The article also examines the position of neighboring Turkey, which maintained neutrality during the war, and analyzes the diplomatic measures undertaken by London and Moscow to prevent its involvement in the conflict.

***Daxil oldu: 25.02.2026-cı il***